# İDMAN

## 99713 SAYLI HƏRBİ HİSSƏ BİRİNCİLİYİ ƏLDƏN VERMƏYİB

"2016-cı ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, martın 5-6-da Daxili İşlər Naziirliyinin İdman Cəmiyyətində Daxili Qoşunların birinciliyi uğrunda sərbəst güləş üzrə yarış keçirilib. Yarışda Ali Hərbi Məktəbdən və Daxili Qoşunların hərbi hissələrindən 13 komanda, 82 nəfər hərbi qulluqçu iştirak edib. Şəxsi birincilik uğrunda keçirilən yarışın nəticələri aşağıdakı kimi olub:



**55 kq çəki dərəcəsində**

**I yer** - kursant Coşqun Hudulov (Ali Hərbi Məktəb)
**II yer** - baş çavuş Həsən Xəlilov (16077 saylı hərbi hissə)
**III yer** - əsgər Elxan Rəhmanov (17072 saylı hərbi hissə)
**III yer** - kursant Yunis Cəfərov (Ali Hərbi Məktəb)

**60 kq çəki dərəcəsində**

**I yer** - çavuş Kamal Məmmədli (16075 saylı hərbi hissə)
**II yer** - gizir Xəyal Məmmədov (99713 saylı hərbi hissə)
**III yer** - əsgər Cəmil Sadıqov (25031 saylı hərbi hissə)
**III yer** - kursant Tahir Ağazadə (Ali Hərbi Məktəb)

**66 kq çəki dərəcəsində**

**I yer** - baş çavuş Eldar Məmmədov (99713 saylı hərbi hissə)
**II yer** - leytenant Nadir Şərifov (16075 saylı hərbi hissə)
**III yer** - çavuş Həsən Şəmsiyev (17072 saylı hərbi hissə)
**III yer** - çavuş Vüsal Məlikov (12318 saylı hərbi hissə)

**74 kq çəki dərəcəsində**

**I yer** - çavuş Məhəmməd Ağalarov (99713 saylı hərbi hissə)
**II yer** - əsgər Elnur Osmanov (25031 saylı hərbi hissə)
**III yer** - kiçik çavuş Mustafa Şəmsiyev (17072 saylı hərbi hissə)
**III yer** - gizir Vüqar Məlikov (12318 saylı hərbi hissə)

**84 kq çəki dərəcəsində**

**I yer** - əsgər Pərviz Axundov (25031 saylı hərbi hissə)
**II yer** - əsgər Əli Bayramov (99713 saylı hərbi hissə)
**III yer** - kiçik çavuş Fərman Həsənov (16073 saylı hərbi hissə)
**III yer** - kiçik çavuş Mahmud Qasımov (67987 saylı hərbi hissə)

**96 kq çəki dərəcəsində**

**I yer** - gizir Salman Musayev (99713 saylı hərbi hissə)
**II yer** - əsgər İbrahim İmaməliyev (99713 saylı hərbi hissə)
**III yer** - əsgər Aqil Nuriyev (67987 saylı hərbi hissə)
**III yer** - baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə)

**120 kq çəki dərəcəsində**

**I yer** - çavuş Orxan Əsgərov (17072 saylı hərbi hissə)
**II yer** - baş leytenant Seymur Rzayev (16076 saylı hərbi hissə)
**III yer** - gizir Emil İskəndərov (16073 saylı hərbi hissə)
**III yer** - leytenant Taleh Əsgərov (16077 saylı hərbi hissə)

Komanda üzrə nəticələrə gəldikdə, cədvələ 30 xalla 99713 saylı hərbi hissə başçılıq edib. 2-ci yerdə 11 xalla 25031 saylı hərbi hissə, 3-cü yerdə 10 xalla 16075 saylı hərbi hissə qərarlaşıb. Sonuncu üç yeri isə 17074, 25033, 17071 saylı hərbi hissələr aralarında bölüşüblər.

# YANĞIN TƏHLÜKƏSİZLİYİ QAYDALARI

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsindən çıxarış (5 saylı əlavə).***

### Hərbi hissə və bölmələrdə yanğına qarşı ümumi tədbirlər

**1.** Hərbi hissənin ərazisi daim zibil və quru otdan təmizlənməlidir.

Yanğından mühafizə üçün su təchizatı mənbələrinə, binalara gedən yollar və düşərgə ərazisindəki bütün keçidlər yanğınsöndürən maşınların keçməsi üçün həmişə açıq olmalıdır.

**2.** Yanğın təhlükəsizliyi məqsədilə aşağıdakılar qadağandır:

- tikintilərdən, əmlak olan meydançalardan və maşınlardan 40 metrdən az olan məsafədə ocaq qalamaq, eləcə də parklarda, saxlanclarda, anqarlar və bunlara bənzər yerlərdə papiros çəkmək və alov saçan cihazlar tətbiq etmək;
- nasaz sobalardan, ocaq qalamaq üçün alışan mayelərdən istifadə etmək, alışan materialları və əmlakı sobaların yaxınlığında qoymaq, yanan sobaları nəzarətsiz buraxmaq, paltarları sobaların üstündə, bacalarda qurutmaq, sobaları şəxsi heyətin istirahət etdiyi (yatdığı) saatlarda qalamaq (sobalar qalandığı dövrdə bacalar iki ayda bir dəfədən az olmayaraq təmizlənməlidir);
- binalarda açıq alovla (məşəl, lehimləmə lampası və s. ilə) donmuş su borularını qızdırmaq (binalarda boru və başqa qurğular buxarla, isti su və başqa təhlükəsiz vasitələrlə qızdırılmalıdır);
- binaların zirzəmilərində yanğın təhlükəsi olan materialların və mayelərin saxlanması, eləcə də onların emalı ilə bağlı anbarlar, emalatxanalar düzəltmək;
- yanğınsöndürmə vasitələrinə gedən yolları kəsmək;
- çardaqlarda, pilləkənlərdə və dəhlizlərdə alışan material və əmlak saxlamaq, arakəsmələr düzəltmək, köməkçi emalatxanalar və laboratoriyalar yerləşdirmək və belə yerlərdə yaşamaq;
- yanğınsöndürmə vasitələrindən təyinatına uyğun olmayaraq istifadə etmək;
- nasaz elektrik keçiriciləri və avadanlığından, alışmaz altlıq qoymadan - məişət elektrik qızdırıcı cihazlarından istifadə etmək, eləcə də elektrik lövhələrində yanmış qoruyucuları məftillər və başqa predmetlərlə əvəz etmək;
- elektrik lampalarını kağız və parça ilə bürümək, məftillərin üstünü kağız, plakat, yaxud divar kağızı ilə örtüb yapışdırmaq, elektrik işığı şəbəkəsi düzəltmək üçün telefon məftillərindən istifadə etmək;
- yanğın təhlükəsizliyi baxımından yoxlanmamış binaları (saxlancları) mühafizə olunmağa təhvil vermək.

**3.** Paltarların dezinfeksiyası və qurudulması təchiz edilmiş dezkamera və qurutmaxanalarda daimi nəzarət altında həyata keçirilir.

Paltarları kameralara asmazdan qabaq onların cibləri çevrilməlidir.

**Paltarları dezinfeksiya edərkən və qurudarkən qadağandır:**

*- kameralardakı temperaturu müəyyən olunmuş normadan yuxarı qaldırmaq;*
*- kameralara və qurutmaxanalara normadan artıq paltar asmaq;*
*- yağ və alışan mayelər hopmuş paltarı kameraya asmaq;*
*- paltarları kameraların qoruyucu torlarının üstünə yığmaq.*

**4.** Kazarmalarda, klublarda və istehsalat binalarında, eləcə də anbarların, parkların ərazilərində papiros çəkməyə ancaq bunun üçün ayrılmış və xüsusi hazırlanmış yerlərdə icazə verilir.

**5.** Dəhlizlər, keçidlər, əsas və ehtiyat çıxışları, pilləkənlər daim açıq saxlanmalı və başqa şeylərlə tutulmamalıdır. Kazarmanın, emalatxanaların, klubların və başqa binaların qapıları bayıra açılmalıdır. Ehtiyat çıxış yollarını mismarlamaq qadağandır.

**6.** Yanğınsöndürmə vasitələri, su hövzələri, yanğın hidrantları və kranları saz olmalıdır, onların olduqları yerlər isə göstəricilərlə işarələnməlidir.

Binalarda və obyektlərdə yanğınsöndürmə vasitələrinin sayı xüsusi normalarla müəyyən edilir. Anbarların, parkların, anqarların ərazilərində və istehsalat binalarında yanğınsöndürmə vasitələri lövhələrdə saxlanmalıdır.

**7.** Telefon aparatlarının yanında yaxınlıqdakı yanğınsöndürmə komandasının telefon nömrəsi yazılır, hərbi hissənin ərazisində yanğın həyəcanı siqnalı vermək üçün səs siqnalizasiyası vasitələri olmalıdır.

**8.** Hər gün bütün emalatxanalar, saxlanclar, anbarlar, parklar, anqarlar və yanğın təhlükəsi olan başqa istehsalat binaları bağlanmazdan qabaq anbar, saxlanc, sex rəisləri, park növbətçiləri və yanğın növbəsi nəfərləri tərəfindən yoxlanmalıdır, aşkar edilmiş bütün çatışmazlıqlar binalar (saxlanclar) bağlanana qədər aradan qaldırılmalıdır, elektrik şəbəkələri isə bayır rubilniki ilə söndürülməlidir.

**9.** Hərbi hissələrdə (bölmələrdə, müəssisələrdə) əlavə yanğın təhlükəsizliyi tədbirləri xüsusi əsasnamə, təlimat, nizamnamə və göstərişlərə uyğun həyata keçirilir.

### Parklarda və anqarlarda xüsusi yanğın təhlükəsizliyi tədbirləri

**10.** Maşınlar (təyyarələr) elə saxlanılır ki, yanğın baş verdikdə onları tez çıxarmaq üçün aralarında zəruri keçid qalsın.

**11.** Parklarda və anqarlarda yanğın baş verməsinin qarşısını almaq üçün aşağıdakılar qəti qadağandır:

*- dayanacaqda duran maşınları yanacaqla doldurmaq, yanacaq bakı və yanacaq boruları axıdan maşınları (təyyarələri) saxlamaq;*
*- maşın dayanacaqlarında onların baklarındakından başqa yanacaq və sürtkü materialları, eləcə də boş qablar saxlamaq;*
*- ağ neft, benzin və başqa maye yanacaqlarla çexolları, kapotları və paltarı yumaq və təmizləmək;*
*- maşınlarda kənar əşyalar - xüsusilə yağlı əsgi, çexol, xüsusi paltar saxlamaq;*
*- parklara və anqarlara yanacaq çənləri gətirmək və saxlamaq;*
*- yanğın təhlükəsi olan qızdırıcılar tətbiq etmək;*
*- baklara yanacaq doldurarkən və dayanacaqlarda od saçan əşyalardan və neft fənərindən istifadə etmək;*
*- maşın dayanacağı kimi istifadə olunan binalarda qaynaq işi aparmaq;*
*- təyyarələrin mühərriklərini qızdırmaq və işə salmaq;*
*- saxlanc və dayanacaq kimi istifadə olunan binaların darvazalarına əşyalar yığmaq, bu binalarda anbar, emalatxana və yaşayış yeri düzəltmək;*
*- maşınların (təyyarələrin) saxlanması və dayanacağı kimi istifadə olunan binaların darvazalarını içəridən cəftə ilə bağlamaq.*

**12.** Yanğın baş verdikdə, maşınların (təyyarələrin) təcili çıxarılmasını təmin etmək üçün hər gün xüsusi troslar olan növbətçi-yedəkçilər və naryad ayrılır.

### Emalatxanalarda xüsusi yanğın təhlükəsizliyi tədbirləri

**13.** Tezalışan mayelərlə (ağ neft, benzin, aseton, spirt, nitratlı lak və s.) iş aparılan və akkumulyator batareyaları doldurulan binalar xüsusi ventilyasiya ilə təchiz olunmalıdır. Elektrik mühərrikləri, çilçıraqlar və elektrik paylayıcı qurğular elə hazırlanır ki, onlarda partlayış baş verməsin. Doldurma aqreqatları və qaz qaynağı aparatlarının generatorları ayrıca otaqlara qoyulmalıdır. Bu otaqlarda sobalar qurmaq qadağandır.

**14.** Tezalışan mayelər ayrı, kip bağlanan metal qablarda birgünlük tələbat üçün lazım olan miqdarda saxlanılır və iş qurtaran kimi onlar xüsusi anbar binalarına aparılır.

Maye yanacaqla işləyən istehsalat sobalarının və aqreqatlarının işlədilən baklarının həcmi 1 kubmetrdən artıq olduqda ayrıca otaqda, 1 kubmetrdən az olduqda isə aqreqatdan ən azı 5 m məsafədə odadavamlı divarlar üstünə qoyulmalıdır.

**15.** Silgi materiallarını, yağlı əsgi və cındırları yığmaq üçün qapaqlı metal qutular qoyulmalıdır. Bu qutular iş qurtaran kimi mütləq boşaldılmalıdır.

Yağa bulaşmış iş paltarı istehsalat binalarından (sexlərdən) kənarda xüsusi şkaflarda asılmış şəkildə saxlanılmalıdır. İş paltarının ciblərində yağa bulaşmış silgi materialı saxlamaq qadağandır.

**16.** Sobaların qalanması emalatxanaların bağlanmasına 2 saat qalmış dayandırılır.

İşlər qurtaran kimi gün ərzində yığılmış bütün istehsalat tullantıları və zibil emalatxana binalarından çıxarılmalıdır.

### Anbarlarda (saxlanclarda) xüsusi yanğın təhlükəsizliyi tədbirləri

**17.** Anbarların (saxlancların) texniki ərazisinə kibrit və başqa yandırıcı ləvazimatla adam buraxılması qadağandır.

Anbarların (saxlancların) ərazisində olan ot vaxtında biçilməli və yığılmalıdır. Otun anbar ərazisində qurudulmasına və yandırılmasına yol verilmir.

**18.** Saxlanclarda ancaq onların təyinatına uyğun əmlak növlərinin saxlanmasına icazə verilir.

Saxlanclarda keçidləri və çıxışları iri predmetlər qoyub bağlamaq, qapıları içəridən cəftə ilə bağlamaq, qəfəslərə üz çəkmək, pəncərələrə kağız və oddan qoruyucu tərkiblə işlənməmiş karton, polimer materiallar və parça yapışdırmaqla işığın qabağını kəsmək qadağandır.

**19.** Əmlak qalaqlara elə yığılmalıdır ki, keçidlər və çıxışlar boş qalsın. Əmlakı sobalara, istilik radiatorlarına, elektrik xətlərinə və lampalara yaxın yığmaq, eləcə də əmlakın daşınması və yığılması ilə əlaqədar olmayan başqa işlərin görülməsi qadağandır.

**20.** Saxlancların yaxınlığında inşaat materialı, yanacaq ehtiyatı, yaxud hər hansı əmlak, eləcə də boş tara və qablaşdırma materialı yığmaq və ümumi saxlanclarda tezalışan mayelər saxlamaq qadağandır.

**21.** Sobaların odluqları və qapaq deşikləri saxlancın kənarında düzəldilir, bacaları isə qığılcımtutanlarla təchiz edilir. Anbarların bağlanmasına 2 saat qalmış sobaların qalanması tamamilə dayandırılır, bütün sobalar nəzərdən keçirilir və bağlanır.

**22.** Saxlanclara elektrik işığı çəkildikdə, onların rubilnikləri bayırda qoyulur. Qoruyuculu qrup lövhələri metal qutulara salınmalıdır. Anbar və saxlancların lampaları örtülü (şüşə örtüklü) olmalı, əsas və nəzarət keçidləri boyu yerləşdirilməlidir. Saxlancların içərisində elektrik rozetkaları qoymaq və xidmət yerləri düzəltmək qadağandır.

**23.** Döyüş sursatı və partlayıcı maddələr saxlanılan və onlarla iş aparılan yerlərin pəncərə şüşələri tutqun olmalı, yaxud ağ rənglə boyanmalıdır.

Döyüş sursatı və partlayıcı maddələr az müddətə belə günəş şüaları altında saxlanmamalıdır.

Bütün saxlanclar, talvarlar, döyüş sursatı olan meydançalar, əsas və köməkçi istehsalat sexləri, laboratoriyalar, yüksək gərginlikli elektrik xətləri və yarımstansiyaları, qazanxana boruları, su qüllələri, yanacaq və sürtkü materialı və hərbi əmlak anbarları ildırımötürən qurğularla təchiz edilməlidir.

**24.** Yanğın (partlayış) təhlükəsi olan saxlanclara odlu və soyuq silahla, yandırıcı ləvazimatla və akkumulyator fənərindən başqa işıqlandırma cihazları ilə, eləcə də müvafiq təlimatda göstərilməyən ayaqqabı ilə daxil olmaq qadağandır.

**25.** Tezalışan mayelər anbarı ancaq elektrik işığı ilə təchiz edilir ki, orada partlayış baş verməsin.

**26.** Saxlancların ərazisində maye yanacaq yerə dağıldıqda onun üstünə dərhal qum tökülməlidir.

**27.** Metal qabların tıxaclarını açarkən qığılcım saçan metal alətlərdən istifadə etmək qadağandır. Onları açmaq üçün ancaq xüsusi açarlardan istifadə edilməlidir.

**28.** İş qurtaran kimi saxlancların elektrik şəbəkələri bayır rubilniki ilə söndürülür.

### Allah rəhmət eləsin

99713 saylı hərbi hissənin şəxsi heyəti polkovnik-leytenant Salman Hüseynova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

ƏSGƏR

№ 07 (473)
31 mart
2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# "AZƏRBAYCAN SABİTLİK, TƏHLÜKƏSİZLİK MƏKANIDIR"

***Azərbaycanda təhlükəsizlik yüksək səviyyədə təmin edilir. Bu gün Azərbaycan xalqı yaxşı görür ki, müxtəlif regionlarda, bölgələrdə vəziyyət gərginləşir, yeni münaqişə, müharibə ocaqları yaranır.***

Bu fikirləri Prezident İlham Əliyev Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində söyləyib.

Dövlətimizin başçısı deyib: "Keçən il burada, Novruz şənliyində çıxış edərkən, əlbəttə, biz təsəvvür edə bilmirdik ki, bir il ərzində bu qədər dəyişikliklər olacaq. Bu dəyişikliklər müsbətə doğru dəyişikliklər deyil, yeni münaqişə, qarşıdurma ocaqları, yeni müharibələr, miqrant böhranı. Azərbaycan isə sabitlik, təhlükəsizlik məkanıdır. Biz çalışırıq və çalışacağıq ki, ölkəmizi bütün mümkün risklərdən qoruyaq, xalqımızın rahat yaşamasını, təhlükəsiz həyatını təmin edək və ölkəmizi inkişaf yolu ilə irəliyə aparaq".

Prezident vurğulayıb ki, bugünkü dünyada bir çox ölkələr üçün təhlükəsizlik məsələləri ön plana çıxır. Azərbaycan bu sahədə nümunəvi ölkədir. Azərbaycan xalqı rahat, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayır. Azərbaycanda kriminogen durum çox yaxşıdır. Bu göstəriciyə görə biz dünya miqyasında liderlər sırasındayıq.

"Biz heç bir ölkənin daxili işinə qarışmırıq, heç bir avantüraya qoşulmuruq, öz işimizlə məşğuluq, öz ölkəmizi inkişaf etdiririk, xalqımızın rifahını təmin edirik. Əlbəttə, heç vaxt imkan verməmişik və verməyəcəyik ki, kimsə bizim daxili işimizə qarışsın. Çünki Azərbaycan xalqı öz taleyinin sahibidir.

Biz ölkəmizin inkişafı, çiçəklənməsi üçün əlimizdən gələni edirik. Bütün Azərbaycan cəmiyyəti vahid ideya, amal uğrunda birləşibdir - ölkəmizi gücləndirək, iqtisadiyyatı inkişaf etdirək, xalqımızın rifah halını daha da yüksəklərə qaldıraq", - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident deyib ki, bütün beynəlxalq məsələlərlə bağlı bizim prinsipial mövqeyimiz var və bu mövqeyə heç bir kənar qüvvə təsir edə bilməz. Biz ədalətin, beynəlxalq hüququn, əməkdaşlığın tərəfdarıyıq. Biz heç vaxt imkan verməmişik, vermirik və verməyəcəyik ki, Azərbaycan başqa dövlətlərin maraqlarını təmin etmək üçün qarşıdurma məkanına çevrilsin. Əksinə, Azərbaycan əməkdaşlıq məkanıdır. Biz bölgədə sabitləşdirici, barışdırıcı rol oynayırıq. Bizə olan hörmət getdikcə artır. Çünki bizim sözümüzlə əməlimiz birdir. Biz prinsipial mövqe nümayiş etdiririk.





Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açan dövlət başçısı qeyd edib ki, Minsk qrupunun həmsədrləri pozucu fəaliyyətləri ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin dondurulmasına xidmət edirlər: "Onlar öz səlahiyyətlərini aşaraq beynəlxalq təşkilatların işinə müdaxilə edirlər. Ermənistana təzyiq etmək əvəzinə, ermənilərə himayədarlıq edirlər, onları qoruyurlar. Münaqişənin həlli əvəzinə qəribə təkliflər verirlər ki, təmas xəttində təhlükəsizlik tədbirləri möhkəmləndirilsin.

Yəni, bu, nə deməkdir? O deməkdir ki, işğalçı dövlət özünü daha rahat hiss etsin və işğalı, status-kvonu daha da möhkəmləndirsin. Biz burada, əlbəttə, həm Azərbaycana qeyri-dost, qeyri-səmimi münasibət, eyni zamanda riyakarlıq görürük və bunu açıq deyirik, onların üzünə deyirik. Mən burada artıq ictimaiyyətə də bunu deyirəm, bir tərəfdən onların dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Digər tərəfdən, Minsk qrupunun həmsədrlərinin pozucu fəaliyyəti status-kvonun möhkəmlənməsinə xidmət edir. Bax, budur münaqişənin uzadılmasının əsas səbəbi və hesab edirəm ki, bu siyasətin arxasında hansı amillərin dayandığını Azərbaycan xalqı çoxdan bilir. Bu, ədalətsizlikdir. Bu, ikili standartlar siyasətidir. Biz bu siyasəti rədd edirik və bundan sonra bütün kürsülərdə öz sözümüzü deyəcəyik".

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan dövlətinin siyasəti beynəlxalq hüquqa, ədalətə, əməkdaşlığa əsaslanır. Ancaq bizə qarşı belə təxribatçı addımların atılması, əlbəttə ki, cavabsız qalmır və qalmayacaqdır.

**AZƏRTAC**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



***Respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov martın 16-da Daxili Qoşunların Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissəsinin meydanında Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Naftalan və Xocalı şəhər, rayon polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti, həmçinin, "İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 mart tarixli Fərmanının icrası çərçivəsində mülki işçi vəzifələrinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.***

Sıra baxışında kütləvi informasiya vasitələrində verilmiş elana uyğun olaraq, həmin şəhər və rayonlarda yaşayan, polisin sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək istəyən 870 nəfər iştirak edib. Onların arasından daha hazırlıqlı olan 112-si polisin və Daxili Qoşunların sıralarında xidmətə, 226 gənc isə mülki işçi vəzifələrinə namizəd kimi seçilərək sənədlərinin hazırlanması üçün aidiyyəti üzrə baş idarələrin rəhbərlərinə müvafiq göstəriş verilib.

Sonra namizədlər qarşısında çıxış edən nazir istər Ümummilli Liderimiz Heydər Əliyevin, istərsə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin parlaq gələcəyinin yüksək intellektə, geniş dünyagörüşünə, dərin biliyə və işgüzarlığa malik, mükəmməl təhsil almış, dövlətçiliyə sadiq, vətənpərvər gənclərdən asılı olduğunu dəfələrlə vurğuladıqlarını xatırladıb. O, deyib ki, belə yüksək mənəvi və iş keyfiyyətlərinə malik şəxslərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün zəruri addımlar atılır. Hazırkı tədbir də göstərilən sahədə həyata keçirilən məqsədyönlü siyasətin növbəti bariz nümunəsidir.

Daxili İşlər Naziri onu da qeyd edib ki, ictimai asayişin qorunmasında vətəndaşların iştirakı könüllülük, qanunçuluq, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin üstünlüyü, insanların şərəf və ləyaqətinə hörmət, müvafiq dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq və polis orqanlarının səlahiyyətlərinin əvəzlənməsinin yolverilməzliyi prinsiplərinə əsaslanır. Vətəndaşların polis orqanları ilə əməkdaşlığı isə onların həmin orqanların vəzifəli şəxslərinin rəhbərliyi altında ictimai asayişin qorunması üzrə vəzifələrin yerinə yetirilməsində iştirakını nəzərdə tutur.



General-polkovnik Ramil Usubov gəncləri təbrik edərək gələcək çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını daim uca tutmalarını, bilik və təcrübələrini artırmalarını, öz üzərlərində işləmələrini, müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

Daha sonra Daxili İşlər Naziri hərbi hissənin əsgər və zabitləri ilə görüşüb. Novruz bayramı münasibətilə onlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin səmimi təbriklərini və xoş arzularını çatdıran nazir hərbi qulluqçuların döyüş hazırlığı və sosial-məişət şəraiti ilə maraqlanıb, bu istiqamətdə bəzi tapşırıq və tövsiyələrini verib, onlarla birlikdə nahar edib.

# DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ HƏRBİ QULLUQÇULARIN MÜKAFATLANDIRILMA MƏRASİMİ KEÇİRİLİB

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 24-cü ildönümü münasibətilə müvafiq əmrlərə əsasən, respublikamızın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçərək şəhid olmuş, həmçinin xidmətdə xüsusilə fərqlənmiş, yüksək peşə hazırlığı, nümunəvi hərbi intizam nümayiş etdirmiş bir qrup hərbi qulluqçu mükafatlandırılıb.***



Bu münasibətlə martın 19-da Daxili Qoşunların Baş İdarəsində mükafatların təqdim edilməsi mərasimi keçirilib.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov mükafatları hərbi qulluqçulara təqdim edib. Şəhid hərbi qulluqçularımızın təltif edildikləri "İgidliyə görə" medalı cənab Komandan tərəfindən onların valideynlərinə verilib.

Həmin gün Daxili Qoşunların ictimaiyyətlə əlaqələrinin möhkəmləndirilməsində, vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində hərbi qulluqçularla mədəni-kütləvi tədbirlərin keçirilməsinin təşkilində və gənc nəslin milli ruhda tərbiyə olunmasında xüsusi əməyini nəzərə alaraq, Səbail rayon İcra Hakimiyyəti Başçısının 1-ci müavini Xalidə Bayramova da "Fəxri Fərman"la mükafatlandırılıb.

Tədbirin sonunda çıxış edən general-leytenant Ş.Məmmədov təltif olunan hərbi qulluqçuları, şəhid valideynlərini bir daha təbrik edərək, göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanına minnətdarlığını bildirib. O qeyd edib ki, şəxsi heyət bundan sonra da onlara göstərilən etimadı doğruldacaq, dövlət və dövlətçiliyimizin qorunması naminə verilən bütün əmr və göstərişləri tam keyfiyyətlə yerinə yetirəcək.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə hərbi qulluqçulardan 25 nəfər (1 nəfər "Vətən uğrunda", 3 nəfər "İgidliyə görə" (ölümündən sonra), 21 nəfər "Hərbi xidmətlərə görə" medalı ilə) təltif edilib.

Daxili İşlər Naziri general-polkovnik R.Usubovun əmri ilə hərbi qulluqçulardan 142 nəfər (30 nəfər "Hərbi xidmətdə fərqlənməyə görə" medal, 12 nəfər "Vaxtından əvvəl növbəti hərbi rütbə", 40 nəfər "Təşəkkür", 25 nəfər "Fəxri Fərman", 35 nəfər "200 manat məbləğində pul"), Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədovun əmri ilə isə 95 nəfər (40 nəfər "Təşəkkür", 29 nəfər "Fərman", 15 nəfər "200 manat məbləğində pul", 11 nəfər "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə) mükafatlandırılıb.

